# Minlərlə türkün yaşadığı ölkədə türk dili rəsmi dil elan olunub






*İraqın 1 milyondan çox əhalisi olan Səlahəddin vilayətində mədəni və tarixi əlaqələrin gücləndirilməsi istiqamətində rəsmi yazışmalarda üçüncü dil olaraq türkcənin istifadə ediləcəyi bildirilib. Türk dilinin rəsmi dil olaraq qəbul edilməsi ilə türkmənlər dövlət idarələrində və rəsmi əməliyyatlarda öz dillərindən istifadə edə biləcəklər. Bundan əlavə, dövlət qurumlarında ana dilində xidmət almaq hüququ təmin ediləcək, türkmənlərin mövcudluğu rəsmi sənədlərdə və yazışmalarda daha geniş yer tapacaq.*

Səlahəddin Əyalət Şurasının sədri Adil Sümeydai türkmənlərin sıx yaşadıqları Səlahəddin vilayətində türkcənin rəsmi dil olaraq qəbul edildiyini açıqlayıb. O, vilayət sərhədləri daxilində ərəb və kürd dilləri ilə yanaşı, türkcənin də rəsmi dil kimi qəbul edilməsini təsdiqləyib.

Bu qərar İraq Konstitusiyasının türkmənləri ölkənin üçüncü əsas ünsürü kimi tanımasından sonra mühüm addım hesab olunur.

İraq parlamentinin keçmiş türkmən millət vəkili Fevzi Ekrem Terzi bunun İraqda üçüncü etnik qrup olan türkmənlərin təbii haqqı olduğunu deyib: "Həqiqətən də bu konstitusiya çərçivəsində türkmənlərin çoxluq təşkil etdiyi bölgələrdə türkmənlər öz hüquqlarını almalıdırlar ki, bu da konstitusiyada təyin olunan üçüncü əsas ünsürü təşkil edir. Türkcənin rəsmi dil olaraq qəbul edilməsi ilə bağlı addım Səlahəddin Əyalət Məclisinin türkmən millət vəkili Atıf Tuzlu tərəfindən atılıb və türkmənlərin rəsmi dilinin olması təklifi qəbul edilib".

Onu da qeyd edək ki, İraqın türkmən əhalisinin sıx olduğu Kərkük və Musul şəhərlərində də 2023-cü ilin mart ayında türk dili rəsmi yazışma dili kimi qəbul edilib. Artıq Kərkükdə rəsmi ofislər və açıq hava lövhələri türk dilində də yazılır. Kərkük Qubernatorluğu və Əyalət Şurasında da türk lövhələri asılıb. 2008-ci ildə qəbul edilən qərar illər sonra qüvvəyə minib. Qərara görə, türk dili bütün əyalətdə rəsmi yazışmalar üçün etibarlı dillərdən biri hesab olunur. Qərar çərçivəsində şəhərin bütün məktəblərinin lövhələri yenilənib.

Xatırladaq ki, 2024-cü ildə Kosovonun mərkəzi hissələrində yerləşən Lipyan Bələdiyyəsində də türk dili rəsmi istifadədə olan dil statusu qazanıb. Kosovonun çoxmillətli və çoxmədəniyyətli quruluşunu bir daha önə çıxaran bu qərarla Kosovoda əsrlər boyu danışılan türk dili artıq rəsmi dil kimi tanınıb.




Bu qərar Kosovo Demokratik Türk Partiyasının (KDTP) millət vəkili Enis Kervanın təşəbbüsü ilə Lipyan Bələdiyyə Şurasında keçirilən iclasda yekdilliklə qəbul edilib.

E.Kervan Lipyan bələdiyyəsinin Yanova kəndində əsasən türklərin yaşadıqlarını və bu qərarın ölkənin müxtəlif bölgələrində türkcənin güclənməsi üçün bir addım olduğunu vurğulayıb. Kosovada artıq türk dili Prizren və Mamuşa bələdiyyələrində "rəsmi dil", Priştina, Gjilan, Vycitirin, Cənubi Mitrovitsa və Şimali Mitrovitsa bələdiyyələrində isə "rəsmi istifadədə olan dil" statusuna malikdir.

Qeyd edək ki, Kosovo qanunlarına əsasən, bir bələdiyyə sərhədləri daxilində ənənəvi olaraq danışılan dil, təmsilçiliyindən asılı olmayaraq "rəsmi istifadədə olan dil" statusuna malik ola bilər. Kosovada 2024-cü ildə keçirilən siyahıyaalmaya görə, ölkədə 19 min 419 türk yaşayır, təxminən 50 min insan isə ana dili ilə yanaşı, türkcə danışa bilir.

**Esmira Yazkan ASLANOVA,**
**"Respublika" qəzetinin**
**Türkiyə üzrə müxbiri.**